*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 409-414*

https://doi.org/10.62837/2025.10.409

**ÇİNARƏ QƏHRƏMANOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan dili kafedrasının dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*
*E/mail: chinara83@gmail.com*
*Orcid İD: Orcid id: 0000-0321-8274-4545*

# AZADLIQ VƏ MİLLİ İSTİQLAL ŞAİRİ BƏXTİYAR VAHABZADƏ

**Xülasə**

Azərbaycan ədəbiyyatının XX əsrində milli təfəkkürün, ictimai şüurun və poetik düşüncənin daşıyıcısı olan nadir şəxsiyyətlərdən biri də Xalq şairi Bəxtiyar Vahabzadədir. Onun fəaliyyəti yalnız bədii yaradıcılıqla məhdudlaşmır, o, həm də elm adamı, ictimai xadim və milli oyanışın ideoloqlarından biri kimi tarixə düşmüşdür. Sovet senzurasının sərt qaydaları altında belə, o, milli ruhu, azadlıq ideallarını qorumağı və çatdırmağı bacarmışdır.

Bu məqalədə Bəxtiyar Vahabzadənin yaradıcılığında vətən mövzusunun bədii təqdimatı, ideya-məzmun xüsusiyyətləri və onun Azərbaycan poeziyasında tutduğu yer təhlil olunur. Müəllifin vətəndaş şeirləri və poemaları vətən sevgisinin fəlsəfi və emosional dərinliyini əks etdirir.

Bəxtiyar Vahabzadənin yaradıcılığında vətən mövzusu poetik pafosla yanaşı, yüksək vətəndaş məsuliyyəti və milli idealların ifadəsidir. Onun əsərləri bugünkü gənclərin vətənpərvər ruhda formalaşmasına böyük töhfə verir.

**Açar sözlər:** vətən, vətəndaş poeziyası, milli kimlik, ana dili

## Freedom and national independence poet Bakhtiyar Vahabzadeh

**Doc.Chinara Kahramanova**
**E/mail: chinara83@gmail.com**
**Orcid İD: Orcid id: 0000-0321-8274-4545**

**Summary**

One of the rare personalities who carried national thinking, social consciousness and poetic thought in the 20th century Azerbaijani literature is the People's Poet Bakhtiyar Vahabzadeh. His activity is not limited to artistic creativity, he also went down in history as a scientist, public figure and one of the ideologists of national awakening. Even under the strict rules of Soviet censorship, he managed to protect and convey the national spirit and ideals of freedom.

This article analyzes the artistic presentation of the theme of the homeland in the work of Bakhtiyar Vahabzadeh, its ideological and content features, and its place

in Azerbaijani poetry. The author's civic poems and poems reflect the philosophical and emotional depth of love for the homeland.

In Bakhtiyar Vahabzadeh's work, the theme of the homeland, along with poetic pathos, is an expression of high civic responsibility and national ideals. His works make a great contribution to the formation of today's youth in a patriotic spirit.

**Keywords**: homeland, civic poetry, national identity, native language

## Поэт свободы и национальной независимости Бахтияр Вагабзаде

**Доц. Чинара Кахраманова**
**E/mail: chinara83@gmail.com**
**Orcid İD: Orcid id: 0000-0321-8274-4545**

## КРАТКОЕ СОДЕРЖАНИЕ

Одной из редких личностей, носителей национального мышления, общественного сознания и поэтической мысли в азербайджанской литературе XX века, является народный поэт Бахтияр Вагабзаде. Его деятельность не ограничивалась художественным творчеством, он также вошёл в историю как учёный, общественный деятель и один из идеологов национального пробуждения. Даже в условиях жёсткой советской цензуры ему удалось сохранить и передать национальный дух и идеалы свободы.

В статье анализируется художественное воплощение темы Родины в творчестве Бахтияра Вагабзаде, её идейно-содержательные особенности и место в азербайджанской поэзии. Гражданские стихи и поэмы автора отражают философскую и эмоциональную глубину любви к Родине.

В творчестве Бахтияра Вагабзаде тема Родины, наряду с поэтическим пафосом, является выражением высокой гражданской ответственности и национальных идеалов. Его произведения вносят большой вклад в патриотическое воспитание современной молодёжи.

**Ключевые слова:** Родина, гражданская поэзия, национальная идентичность, родной язык

### Giriş/İntroduction

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Bəxtiyar Vahabzadə vətənə sonsuz sevgisi, milli-mənəvi dəyərlərə bağlılığı və vətəndaş mövqeyi ilə seçilən sənətkardır. Onun poeziyasında Vətən təkcə coğrafi məkan deyil, xalqın tarixi, dili, adət-ənənəsi, milli kimliyi ilə vəhdət təşkil edən ali mənəvi dəyər kimi təqdim olunur.

Bəxtiyar Vahabzadə 16 avqust 1925-ci ildə Şəki şəhərində anadan olmuşdur. 1934-cü ildən etibarən ailəsi ilə birlikdə Bakıya köçmüş, burada təhsilini davam

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 409-414*

etdirmişdir. 1942-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunmuş, 1947-ci ildə oranı bitirmişdir. 1951-ci ildə namizədlik, 1964-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Uzun illər BDU-nun professoru kimi çalışmış, yüzlərlə tələbəyə dərs demiş, gənc alimlər yetişdirmişdir.

Bəxtiyar Vahabzadə keçmiş SSRİ Ali Sovetinin deputatı olmuş, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Cəmiyyətin milli şüurunun formalaşmasında mühüm rol oynamış, ana dili uğrunda mübarizədə həmişə ön sırada olmuşdur. O, ədəbiyyatşünaslıqla da fəal məşğul olmuş, Səməd Vurğunun yaradıcılığına dair monoqrafiya yazmış, "Ədəbiyyat nəzəriyyəsi" fənnindən dərslik hazırlamışdır.

**B.Vahabzadə poeziyasının əsas mövzusu.** Bəxtiyar Vahabzadə poeziyası təkcə bədii gözəlliyi ilə deyil, həm də ictimai mövqeyi ilə seçilir. Onun əsərləri milli oyanışa, azadlıq ideyalarına, vətəndaşlıq mövqeyinin güclənməsinə xidmət edir. Şairin dili sadə, obrazlı, eyni zamanda dərin mənalıdır. O, poetik mədəniyyəti xalq ruhu ilə birləşdirərək milli poetikanın formalaşmasında önəmli yer tutur (5).

Bəxtiyar Vahabzadə Azərbaycan xalqının yaddaşına təkcə şair kimi deyil, həm də milli idealların daşıyıcısı, vətənpərvər ziyalı, vətəndaş ədib kimi həkk olunmuşdur. Onun poetik irsi bu gün də aktualdır və gənc nəsillərin milli kimlik şüurunun formalaşmasında mühüm rol oynayır. Bəxtiyar Vahabzadə həm ədəbiyyat, həm də ictimai fikrin tarixində silinməz iz qoymuş şəxsiyyətdir.

**Bəxtiyar Vahabzadənin yaradıcılığında milli-mənəvi dəyərlər.** Vətən sevgisi, ana dili, azadlıq ideyası, vətənə bağlılıq bu şeirlərdə ön plandadır. O, ədəbi fəaliyyətinə 1940-cı illərdə başlamış, ilk şeirlərindən başlayaraq özünəməxsus səmimiyyəti və duyğusallığı ilə seçilmişdir. Onun "Ana dili", "Gülüstan", "Özümə bənzəyirəm", "Latın dili", "Vicdan", "İkinci səs" kimi əsərləri Azərbaycan ədəbiyyatının nadir incilərindəndir.

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.

"Ana dili" şeirində dil və vətən anlayışları vəhdətdə təqdim olunur. "Gülüstan" poeması isə tarixi ədalətsizliyə etiraz və milli birliyə çağırışdır. Bütün yaradıcılığı boyu şair Vətəni yalnız tərənnüm etmir, onu qorumağa, uğrunda mübarizə aparmağa səsləyir. Onun poetik dili sadə, lakin emosional və güclü vətəndaş ruhu ilə zəngindir.

Bəxtiyar Vahabzadənin bütün əsərləri həm Azərbaycan, həm türk dünyası milli birliyi və istiqlal motivlərilə zəngindir. Şairin "Bütün millət dönməliykən yumruğa, Türkün türklə ədavətə haqqı yox"- misrası türk dünyası birliyinə uğurla xidmət edən böyük Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin göstərdikləri yolun poetik davamı olaraq səslənir.

Vətəndaş lirikasının öncüllərindən olan Bəxtiyar Vahabzadə “Ana dili”, “Vətən”, “Azərbaycan”, “Gülüstan”, “Vicdan”, “Torpaq” kimi şeirlərində Vətənin müxtəlif anlamlarını poetik şəkildə ifadə etmişdir. O, Vətəni qorumağı və sevgi ilə xidmət etməyi borc bilir, poeziyasında milli şüurun yüksəldilməsinə xidmət edir (4).

Şair “Azərbaycan-Türkiyə”, “Atatürk”, “Mən türkəm” və başqa əsərlərində də bu mövzuya toxunur, türk dünyasının gələcəyi haqqında təəssüratlarını əks etdirir. Şair vaxtilə misralarından birində deyirdi:

Millət sevgisilə silahlanan şəxs
Özü təkbaşına millət olurmuş.

**“Gülüstan” poeması.** Şairin Vətən sevgisiylə yazdığı “Gülüstan” poeması (1959) Güney və Quzey Azərbaycanın ayrı düşməsini tarixi-mənəvi kontekstdə şərh edir və böyük cəsarətlə yazılmış əsərlərdən sayılır. Şairin şeirlərində həm romantik lirika, həm ictimai fəallıq, həm də fəlsəfi dərinlik müşahidə olunur.

B.Vahabzadənin yüzlərlə sevilən şeirləri, poemalı arasında “Gülüstan” poemasının xüsusi yeri var. Poemanın dili son dərəcə sadə və təsirlidir. Müəllif tarixi hadisəyə yanaşmada bir çox bədii vasitələrdən — simvolika, müqayisə, pafos, daxili monoloq və publisistik təhkiyə üsullarından istifadə edir. “Gülüstan” yalnız bir faciənin təsviri deyil, həm də bir ümid və milli oyanış çağırışıdır. Şair əsərin sonunda ümidsizlik əvəzinə milli dirçəlişə, vəhdətə səsləyir (5).

Necə ayırdınız dırnağı ətdən-
Ürəyi bədəndən, canı cəsəddən?
Axı, kim bu haqqı vermişdir Sizə,
Sizi kim çağırmış Vətənimizə?
Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdalaşdılar.
Bir ölkə ikiyə
Ayrılsın deyə!

Bu sətirlər şairin əsas mövqeyini açıq şəkildə ortaya qoyur — millətin parçalanması ilə barışmamaq, milli birliyə çağırmaq.

“Gülüstan” poeması Sovet dövründə milli hisslərin, azadlıq ideyalarının ifadəsi üçün bir simvola çevrilmişdir. Ciddi senzura şəraitində yazılmış bu əsər əslində bir milli manifest idi. Hətta poemanın çapından sonra müəllifə qarşı müxtəlif səviyyələrdə təzyiqlər də olmuşdur. Ancaq bu əsər Vahabzadənin xalq içində nüfuzunu daha da artırmışdır.

Poemanın mövzusu 1813-cü ildə Rusiya ilə İran arasında bağlanan Gülüstan müqaviləsi nəticəsində Azərbaycanın iki yerə bölünməsi ilə bağlıdır. Bu faciə yalnız siyasi akt kimi deyil, həm də xalqın milli-mədəni bütövlüyünə vurulan ağır zərbə kimi təqdim olunur. Şair bu tarixi hadisəni bədii emosiyalarla, dərin fəlsəfi təhlillə və vətəndaşlıq mövqeyi ilə təqdim edir.

Akademik B. Nəbiyev "Gülüstan"ı "Azərbaycan ədəbiyyatında milli bölünmənin ən dramatik poetik ifadəsi" adlandırır.

Filologiya elmləri doktoru B. Əhmədov əsəri "milli təəssübkeşliyin yüksək bədii forması" kimi dəyərləndirir.

Nəticə olaraq, "Gülüstan" poeması yalnız Vahabzadənin yaradıcılığında deyil, bütövlükdə milli poeziyada tarixi ədalətsizliyə qarşı poetik üsyan, azadlıq ideyasının simvolu, Azərbaycanın şimalı və cənubunun birliyi üçün çağırış rolunu oynamışdır. Bu əsər bu gün də aktualdır, xüsusilə Güney Azərbaycanla bağlı milli müzakirələrdə tez-tez istinad edilir (2.s.72).

Bəxtiyar Vahabzadənin 1959-cu ildə qələmə aldığı "Gülüstan" poeması XX əsr Azərbaycan ədəbiyyatında milli ideyanın poeziyadakı ifadəsi baxımından mühüm dönüş nöqtəsi sayılır. Poema tarixi faktlara əsaslanan, emosional gücü və ictimai-siyasi cəsarəti ilə seçilən, milli ədəbiyyatın qəhrəmanlıq ənənələrini yaşadan əhəmiyyətli poetik nümunədir.

Poemanın mövzusu 1813-cü ildə Rusiya ilə İran arasında bağlanan Gülüstan müqaviləsi nəticəsində Azərbaycanın iki yerə bölünməsi ilə bağlıdır. Bu faciə yalnız siyasi akt kimi deyil, həm də xalqın milli-mədəni bütövlüyünə vurulan ağır zərbə kimi təqdim olunur. Şair bu tarixi hadisəni bədii emosiyalarla, dərin fəlsəfi təhlillə və vətəndaşlıq mövqeyi ilə təqdim edir.

Əsər, xalqın parçalanmış taleyini bədii dillə təsvir edir və milli birliyin, azadlığın vacibliyini vurğulayır. Poema, XIX əsrdə Azərbaycanın Rusiya və İran arasında ikiyə bölünməsi hadisəsini əks etdirir. Şair, bu tarixi faciəni təsvir edərkən, eyni zamanda rus-fars düşmənçiliyinin xalqın həyatına təsirini və insanların daxili mübarizəsini də araşdırır.

Ağalar bilmədi birdir bu torpaq
Təbriz də, Bakı da Azərbaycandır.
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır (3.s.68).

Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması, Azərbaycanın tarixi faciəsinə – ikiyə bölünməsinə həsr olunmuş, milli birliyi, azadlığı və vətən sevgisini tərənnüm edən əsərdir. Şair, Araz çayını iki qardaşı ayıran faciəvi sərhəd kimi təsvir edərək, torpağın parçalanması ilə xalqın parçalanmasının eyni mənada olduğunu vurğulayır. Poema, həm tarixi, həm də emosional baxımdan xalqın milli şüurunun oyanmasına və öz kökünə bağlı qalmasına çağırış edir.

Bu taydan o taya axışdı sel tək
Gözə görünməyən könül telləri
Bu selin önünü nə çay, nə dirək
Kəsə bilməmişdir yüz ildən bəri.

Ümummilli lider Heydər Əliyev B.Vahabzadə haqqında "Xalqın düşüncə və arzuları, hiss və duyğuları, istək və arzuları həmişə sizin zəngin yaradıcılığınızın,

mübariz poeziyanızın cövhəri olmuşdur", - deyə söz açmış, milli istiqlal yolundakı xidmətlərinə görə onu "İstiqlal" ordeni ilə təltif etmişdi. Vaxtilə Türkiyə Cümhuriyyətinin Prezidenti olan Süleyman Dəmirəl də bu böyük şair haqqında: "Sizin ədəbi yaradıcılığınız bütün türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə yaxından bağlıdır", - deyə bəhs edərək onun türk dünyası qarşısındakı xidmətlərini yüksək qiymətləndirmişdi.

**Nəticə:** Bəxtiyar Vahabzadənin yaradıcılığında vətən mövzusu poetik pafosla yanaşı, yüksək vətəndaş məsuliyyəti və milli idealların ifadəsidir. Onun əsərləri bugünkü gənclərin vətənpərvər ruhda formalaşmasına böyük töhfə verir.

## Ədəbiyyat

1)Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004, 328 səh.
2)Bəxtiyar Vahabzadə. Seçmə şeirlər.
3) Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı,. "Öndər nəşriyyat" 2004, 320 səh.
4) https://anl.az/down/medeniyyet2007/fevral/medeniyyet2007_fevral_399.htm
5)http://static.bsu.az/w15/B%C6%8FXTIYAR%20VAHABZAD%C6%8F%20(1).pdf

**Rəyçi: professor Həcər Hüseynova**